# İdmanda qazanılan möhtəşəm uğurlar qürur hissi doğurur

*Bizim idmançılarımız beynəlxalq idman yarışlarında 775 medal qazanmışlar, onlardan 271-i qızıl medaldır. Bu, onu deməyə əsas verir ki, idmançılarımız ölkəmizi beynəlxalq yarışlarda ləyaqətlə təmsil ediblər və Azərbaycanın Dövlət himnini dəfələrlə səsləndiriblər, bizim bayrağımızı yüksəklərə qaldırıblar.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

**Başa çatmaqda olan 2019-cu il bütün sahələr üzrə qazanılan nailiyyətlərlə yadda qalacaq. Dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizin dünya birliyindəki mövqeyini daha da möhkəmləndirdi. İnsan amilinin dövlət siyasətinin əsasını təşkil etməsi və bu istiqamətdə həyata keçirilən tədbirlər, dövlət idarəçiliyindəki yenilənmə əhalinin rifahının daha da yüksəldilməsində böyük rol oynayır. Ötən illərlə müqayisədə Azərbaycanın xeyli qüdrətlənmiş, reytinqi daha da yüksəlmişdir. Bunu dünyanın nüfuzlu reytinq agentliklərinin yaydıqları hesabatlar da təsdiqləyir.**



Yola saldığımız ildə sosial, siyasi, iqtisadi və mədəni sahələrdə olduğu kimi, idmanda da qazanılan uğurlar yaddaqalan olmuşdur. Azərbaycan Prezidenti, MOK-un Prezidenti İlham Əliyevin iştirakı ilə dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə ilin idman nailiyyətləri barədə ətraflı məlumat verildi. Bu gün Azərbaycanın dünyada idman ölkəsi kimi tanındığını diqqətə çatdıran dövlətimizin başçısı ölkəmizin qazandığı idman nəticələrinin, bu sahədəki uğurlarımızın, qələbələrimizin, eyni zamanda, idmana dövlət tərəfindən göstərilən dəstəyin - dövlət proqramlarının icrasının beynəlxalq idman qurumları tərəfindən də yüksək qiymətləndirildiyini bildirdi. Beynəlxalq Olimpiya Komitəsinin, Avropa Olimpiya Komitəsinin və digər mötəbər federasiyaların respublikamızın idman sahəsindəki səmərəli nailiyyətini yüksək qiymətləndirmələri də bu uğurların nəticəsidir.

2019-cu ildə qazanılan idman nailiyyətlərini, ölkəmizdə keçirilən beynəlxalq miqyaslı yarışların yüksək səviyyədə təşkili və insidentsiz başa çatması, idmanın kütləviliyinin təmin olunması istiqamətində atılan addımlar da respublikamızın dünyada şöhrət qazanmasında böyük rol oynayıb. Bu il ərzində idman sahəsində baş vermiş vacib məqamları bir daha xatırlatmaq istərdik.

***- Bu ilin əvvəlində Azərbaycanın kişi voleybol yığması tarixində ilk dəfə Avropa çempionatına vəsiqə şansı qazanıb;***

***- Prezident İlham Əliyev Tərtər rayonunda Olimpiya İdman Kompleksinin tikintisinin başa çatdırılması ilə bağlı 10 933 900 manat ayırıb;***

***- Azərbaycan Qran-prisinin keçirilmə müddəti 2023-cü ilədək uzadılıb. Əvvəlki anlaşma 2020-ci ilədək idi;***

***- Azərbaycanın ağırlıqqaldıranı Rəhman Kazımov dünya birinciliyində qızıl medal qazanmaqla tarixə düşüb;***

***-Azərbaycanın sərbəst güləş yığması Avropa çempionatında 3 qızıl, 1 gümüş, 2 bürünc medal qazanıb;***

***- UEFA Avropa Liqasının kuboku Cocuq Mərcanlıda nümayiş etdirilib;***

***- Bakıda aerobika üzrə Avropa çempionatı baş tutub;***

***- UEFA Avropa Liqasının Bakı Olimpiya Stadionunda təşkil olunan final oyununda İngiltərənin “Arsenal” və “Çelsi” komandaları qarşılaşıb;***

***- Azərbaycanın qadın güləşçisi Mariya Stadnik “Minsk 2019” II Avropa Oyunlarının qalibi olub;***

***- “Qarabağ” komandası 5-ci dəfə UEFA Avropa Liqasının qrup mərhələsinə vəsiqə qazanıb;***

***- Azərbaycanı Qazaxıstanın paytaxtı Nur-Sultandakı dünya çempionatında təmsil edən qadın güləşçimiz Mariya Stadnik qızıl medal qazanıb;***

***- Şahmat üzrə Dünya Kubokunun finalında həmyerlimiz Teymur Rəcəbov çinli Dinq Lireni məğlub edərək çempion olub - 6:4;***

***- Azərbaycanın yeniyetmə şahmatçısı Aydın Süleymanlı dünya çempionu olub;***

***- Azərbaycanın şahmat yığması Ermənistana qalib gələrək 27 ildən sonra Avropa çempionatının bürünc medalçısı olub.***

Göründüyü kimi, bir-birindən uğurlu qələbələr, beynəlxalq miqyaslı tədbirlər, nüfuzlu yarışlar. İdmançılarımızın bir il ərzində 271 qızıl medal qazanması o deməkdir ki, milli bayrağımız 271 dəfə yüksəyə qaldırılıb, 271 dəfə Dövlət himnimiz səsləndirilib. Bütün bunlar ölkəmizin dünya birliyindəki nüfuzunu daha da yüksəldib və mövqeyini möhkəmləndirib.

UEFA Avropa Liqasının finalının Bakı Olimpiya Stadionunda keçirilməsi haqqında qərar anti-Azərbaycan qüvvələrin kürkünə birə salmışdı. Onlar bu qərarı pozmaq üçün min fitnə- fəsada əl atdılar, ancaq xəbis niyyətlərinə nail ola bilmədilər. Bütün təzyiqlərə baxmayaraq, təşkilatçı ölkə kimi Avroliqanın finalı yüksək səviyyədə təşkil edildi. Bakıda keçirilən UEFA Avropa Liqasının yüksək təşkilatçılığı ilə seçilən bu finalı həm oyunçuların, həm də azarkeşlərin yaddaşında xoş xatirələrlə qalacaq.

Bu möhtəşən final oyununa gələn on minlərlə idman həvəskarı və çoxsaylı turistlər də Azərbaycanda təhlükəsizlik və sabitliyin tam şəkildə təmin olunduğunu bir daha gördülər. Azərbaycan bu vaxtadək çoxlu sayda irimiqyaslı mötəbər idman yarışlarına evsahibliyi edib, təbii ki, bundan sonra da edəcəkdir. Bu mənada Birinci Avropa Oyunları, Dördüncü İslam Həmrəylik Oyunları, “Formula 1” Bakı Qran pirisi, UEFA Çempionlar Liqası çərçivəsində 2017-ci ildə “Qarabağ” – “Çelsi” futbol oynunu xatırlatmaq kifayətdir. Bu tədbirlərə qatılmaq üçün yüzlərlə ölkədən minlərlə idmançı, on minlərlə tamaşaçı rahat şəkildə ölkəmizə səfər edib. Onlar özləri də etiraf ediblər ki, heç bir təhlükə ilə qarşılaşmadan yüksək səviyyədə təşkil olunan yarışları izləyiblər. Ümumiyyətlə, müxtəlif beynəlxalq tədbirlərdə iştirak etmək üçün ölkəmizə gələn çoxsaylı xarici ölkə vətəndaşları Azərbaycanda ictimai asayişin yüksək səviyyədə təmin olunmasından, mövcud olan sabitlik və təhlükəsizlik mühitindən, qonaqpərvərlikdən, beynəlxalq standartlar səviyyəsində qurulmuş idman meydançalarından və belə irimiqyaslı tədbirlərin təşkilatçılıq səviyyəsindən çox razı qalıblar.

Dünyanın ən çətin və mürəkkəb oyunlarından hesab edilən “Formula 1” yarışmasının paytaxtımızda yüksək səviyyədə keçirilməsi də beynəlxalq aləmin ölkəmizə olan inam və etimadının nümunəsidir. Bu yarışın ölkəmiz üçün çox böyük faydası var. İlk növbədə, qeyd etmək lazımdır ki, bu yarışı keçirən şəhərlər inkişaf etmiş ölkələrin ya paytaxtı, ya da ki, böyük şəhərlər olmalıdır. Digər tərəfdən, “Formula 1” yarışı ölkəmizə böyük iqtisadi dividendlər gətirir. Birinci “Formula 1” yarışmasından sonra Azərbaycana kütləvi turist axını başlandı. Tarixdə ilk dəfə idi ki, respublikamıza 3 milyondan çox turist səfər etmişdi. Bu, “Formula 1” idman yarışmasından sonra baş verdi.

Belə yarışlar və yaradılmış şərait, yüksək səviyyəli təşkilati işlər ölkəmizin idman şöhrətini daha da artırır. Dövlətimizin başçısı da çıxışında bu məqamı və ölkəmizin qazandığı idman nailiyyətlərini vurğulayaraq dedi ki, aparıcı beynəlxalq idman qurumları Azərbaycanı idman ölkəsi kimi tanıyırlar: “Bizim idman sahəsində ən böyük nailiyyətimiz keçən Yay Olimpiya Oyunlarında qazanılmış qələbədir. Medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerə layiq görülmüşdür. Bu, tarixi qələbədir və bu, təsadüfi qələbə deyil. Çünki ondan bir il əvvəl - 2015-ci ildə Bakıda keçirilmiş Avropa Oyunlarında Azərbaycan komanda hesabında ikinci yerə qalxmışdır. Ona görə idman sahəsində qazandığımız uğurlar təsadüfi xarakter daşımır. Konseptual şəkildə ardıcıl işlər görülür, veteran idmançılara diqqət və qayğı göstərilir, onlar dövlət tərəfindən mükafatlandırılırlar. İdman mütəxəssisləri çox gözəl şəraitdə işləyirlər, idmançılar üçün də bütün şərait yaradılıb. Onların təlim-məşq toplanışları, beynəlxalq yarışlarda iştirakı və idmanla məşğul olmaları üçün yaxşı şərait yaradılıb”.

Hazırda ancaq bölgələrdə 45 Olimpiya İdman Mərkəzinin olduğunu diqqətə çatdıran dövlətimizin başçısı digər rayonlarda da Olimpiya idman mərkəzlərinin açılışına hazırlıq görüldüyünü bildirdi. Yaxın illərdə hər bir rayonda müasir idman kompleksinin istifadəyə veriləcəyini deyən ölkə Prezidenti idmançılara daha yaxşı şəraitin yaradılacağının anonsunu verdi. Təbii ki, bu da həm gənc idmançıların idman bölmələrində hazırlıq keçmələri, həm də şəhər və rayon sakinləri üçün gözəl imkandır.

Bu il qazanılan idman nailiyyətləri arasında şahmatçıların uğurlarını xüsusilə qeyd edən ölkə Prezidenti gənclərimizin nəinki fiziki cəhətdən güclü, eyni zamanda, onların intellektual potensialının da çox yüksək olduğunu bildirdi: “Bizim görkəmli şahmatçımız Teymur Rəcəbov Dünya Kubokunun qalibi olmuşdur. Bu, tarixi hadisədir. On altı yaşadək yeniyetmələrdən ibarət şahmat komandamız Dünya Şahmat Olimpiadasının qalibi olmuşdur. Bu da onu təsdiqləyir ki, şahmata göstərilən diqqət, son illərdə rayonlarda şahmat məktəblərinin açılması öz nəticəsini verməkdədir. Mənim bölgələrə çoxsaylı səfərlərim çərçivəsində şahmat məktəblərinin açılışı da ənənəvi olaraq proqrama salınır. Demək olar ki, mən ölkəmizdə fəaliyyət göstərən əksər şahmat məktəblərinin açılışında iştirak etmişəm”.

İdmanın kütləviliyinin təmin olunmasının, idman şöhrətimizin daha yüksəklərə qaldırılmasının vacib olduğunu və hər bir vətəndaşın idmanla məşğul olmasını tövsiyə edən Prezident İlham Əliyev bu sahədə maarifləndirmə işinin müasir tələblər səviyyəsində qurulmasından söhbət açdı. Bu işdə təcrübəli idmançılara, kütləvi informasiya vasitələrinə müraciət etdi: “Bunun çox böyük xeyri var və əgər belə olarsa, hər bir insan öz həyatında bunu görəcəkdir. Mən ümid edirəm ki, biz buna nail olacağıq. Çünki başqa sahələrdə mənim tövsiyələrim artıq həyatda öz əksini tapır”.

Respublikamızın rəhbəri ölkəmizin gələn il yenə də mötəbər idman yarışlarına evsahibliyi edəcəyini bildirdi. Onların arasında xüsusi diqqət çəkənlər “Formula 1” yarışı və biri dörddəbir final olmaqla, futbol üzrə Avropa çempionatının dörd oyunudur. Artıq yarışların keçiriləcəyi tarixlər də bəllidir. Həmişə olduğu kimi, bu dəfə də hazırlıq işləri yüksək səviyyədə aparılıb. Ölkəmizdə idmana olan maraq, beynəlxalq səviyyəli idman yarışlarının yüksək səviyyədə keçirilməsi ənənəsinə sadiqlik bu mötəbər yarışların da layiqincə keçiriləcəyinə əminlik yaradıb. Azərbaycan öz imkanlarını, o cümlədən təşkilatçılıq qabiliyyətini bir daha nümayiş etdirəcək.

Ənənəvi olaraq, bu il də Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatların, fəxri adların, mənzillərin və Prezident təqaüdünün verilməsi ölkəmizdə idmana və idmançılara dövlət səviyyəsində qayğının növbəti təzahürüdür.

***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 29 dekabr.- S,3.